**"Azərbaycan Respublikasının *Mərkəzi Bankı* haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**[1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

*2.1-1. həmin Qanunun 12.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini birinci halda Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, ikinci halda Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;*

~~*2.1-2. həmin Qanunun 12.2-ci maddəsində nəzərdə tutulmuş "məqsədli büdcə fondu" dedikdə Dövlət zəmanəti ilə alınan borcların Təminat Fondu nəzərdə tutulur;*~~[2]

2.2. həmin Qanunun 16.2-ci, 17.1-ci və 17.2-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikasının Nazirlər Kabineti məlumatlandırmaqla həyata keçirir;

2.3. həmin Qanunun 18.1-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi öz səlahiyyətləri daxilində həyata keçirir;

2.4. həmin Qanunun 19-cu və 41.1-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirir;

2.5. həmin Qanunun *22.0.5-ci, 22.0.8-ci, 22.0.13-cü, 22.0.16-cı, 38.3-cü, 42.4-cü və 58.6-cı* maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;[3]

*2.6. həmin Qanunun 58.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.*[4]

3. Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki, bir ay müddətində:

3.1. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 41.1-ci maddəsinə müvafiq olaraq saxta pul nişanları istisna olmaqla, tədavüldən çıxarılmış pul nişanlarının məhv edilməsi qaydalarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

3.2. öz səlahiyyətləri daxilində həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 may 2005-ci il
237

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 11 fevral 2010-cu il, 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 2, maddə 80)**
2. 13 iyul 2017-ci il tarixli **1524** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 15 iyul 2017-ci il, 150 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, maddə 1334)**
3. 13 iyul 2017-ci il tarixli **1527** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 15 iyul 2017-ci il, 150 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, maddə 1337)**
4. 9 avqust 2019-cu il tarixli **806** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 11 avqust 2019-cu il, 175, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1389)**
5. 30 yanvar 2020-ci il tarixli **915** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 31 yanvar 2020-ci il, 20, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 1, maddə 4)**


**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

[1] 10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 11 fevral 2010-cu il, 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 2, maddə 80)** ilə mətnində ismin müvafiq hallarında "**Milli Bank**" sözləri ismin müvafiq hallarında "**Mərkəzi Bank**" sözləri ilə əvəz edilmişdir.

[2] 13 iyul 2017-ci il tarixli **1524** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 15 iyul 2017-ci il, 150 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, maddə 1334)** ilə 2.1-1-ci və 2.1-2-ci bəndlər əlavə edilmişdir.

30 yanvar 2020-ci il tarixli **915** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 31 yanvar 2020-ci il, 20 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 1, maddə 4)** ilə 2.1-2-ci bənd ləğv edilmişdir.

[3] 13 iyul 2017-ci il tarixli **1527** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 15 iyul 2017-ci il, 150 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, maddə 1337)** ilə 2.5-ci bəndində “**38.3-cü**” sözləri “**22.0.5-ci, 22.0.8-ci, 22.0.13-cü, 22.0.16-cı, 38.3-cü**” sözləri ilə əvəz edilmişdir.

9 avqust 2019-cu il tarixli **806** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 11 avqust 2019-cu il, 175 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1389)** ilə 2.5-ci bənddə “**və 42.4-cü** ” sözləri “**, 42.4-cü və 58.6-cı** ” sözləri ilə əvəz edilmişdir.

[4] 9 avqust 2019-cu il tarixli **806** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 11 avqust 2019-cu il, 175 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1389)** ilə 2.5-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunmuşdur və yeni məzmunda 2.6-cı bənd əlavə edilmişdir.